TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

__________ E.M.Ağayev

11 iyul 2025-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**Bu dərman preparatını qəbul etməzdən əvvəl içlik vərəqəsini tam və diqqətlə oxuyun, çünki burada Sizin üçün vacib məlumatlar vardır.**

- Bu içlik vərəqəsini atmayın. Onu yenidən oxumağa ehtiyacınız ola bilər.
- Əgər əlavə suallarınız varsa, həkiminizə və ya əczaçıya müraciət edin.
- Bu dərman preparatı yalnız Sizin üçün təyin edilmişdir. Onu digər insanlara verməyin. Hətta xəstəlik əlamətləri Sizinkilərlə eyni olsa belə, bu dərman başqalarına zərər verə bilər.
- Sizdə əlavə təsirlər meydana çıxdığı halda, bu barədə həkiminizə və ya əczaçıya məlumat verin. Bunlara bu içlik vərəqəsində göstərilməyən hər hansı mümkün əlavə təsirlər də aiddir. "Əlavə təsirləri" bölməsinə baxın.

**L-TİROKSİN 25 BERLİN-HEMİ** 25 mikroqram tabletlər
L-THYROXIN 25 BERLIN-CHEMIE

**Beynəlxalq patentləşdirilməmiş adı:** Levothyroxine sodium

**Tərkibi**
*Təsiredici maddə:* 1 tabletin tərkibində 25 mkq levotiroksin natrium vardır.
*Köməkçi maddələr:* sistein hidroxlorid monohidrat, mikrokristallik sellüloza, qarğıdalı nişastası, prejelatinləşdirilmiş nişasta, yüngül maqnezium oksid, talk.

**Təsviri**
Ağ rəngdən bej rəngədək, dəyirmi, bir qədər qabarıq tabletlərdir.

**Farmakoterapevtik qrupu**
Qalxanabənzər vəzi xəstəliklərinin müalicəsi üçün preparatlar, qalxanabənzər vəzinin hormonları.
**ATC kodu:** H03AA01.

**Farmakoloji xüsusiyyətləri**
L-Tiroksin 25 Berlin-Hemi preparatı tərkibində təsiredici maddə qismində qalxanabənzər vəzinin hormonu – levotiroksin olan dərman preparatıdır. Preparat öz təsirinə görə təbii hormonla eynidir.
L-Tiroksin 25 Berlin-Hemi preparatı qalxanabənzər vəzinin ifraz olunmayan hormonunun əvəz edilməsi və/və ya qalxanabənzər vəziyə düşən yükün azaldılması üçün qəbul edilir.
***Farmakodinamikası***
*Təsir mexanizmi*
L-Tiroksin 25 Berlin-Hemi preparatının tərkibinə daxil olan sintetik levotiroksin öz təsirinə görə, başlıca olaraq, qalxanabənzər vəzi tərəfindən ifraz edilən təbii tireoid hormonu ilə eynidir. Orqanizm üçün endogen və ekzogen levotiroksin arasında heç bir fərq yoxdur.
*Farmakodinamik təsiri*

Qalxanabənzər vəzinin hormonları əsasən, qaraciyərdə və böyrəklərdə qismən liotironinə (T3) çevrildikdən və orqanizmin hüceyrələrinə daxil olduqdan sonra, T3-reseptorlarının aktivləşdirilməsi yolu ilə inkişafa, böyüməyə və metabolizmə təsir göstərərək xüsusi təsirlərə səbəb olurlar.
Klinik effektivliyi və təhlükəsizliyi
Tireoid hormonlarla əvəzedici müalicə metabolizm proseslərinin normallaşmasına gətirib çıxarır. Məsələn, levotiroksinin qəbulu xolesterinin hipotireoz səbəbindən yüksəlmiş səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır.
***Farmakokinetikası***
*Sorulması*
Levotiroksin acqarına vəziyyətdə daxilə qəbul edildikdə, əsasən, nazik bağırsağın yuxarı şöbəsində sorulur, həm də sorulma dərəcəsi, başlıca olaraq dərman formasından asılıdır və 80%-dək təşkil edə bilər. Levotiroksin qida ilə birlikdə qəbul edildikdə, onun sorulması əhəmiyyətli dərəcədə azalır.
Plazmada preparatın maksimal konsentrasiyası onun qəbulundan təxminən 2-3 saat sonra əldə edilir.
Preparat ilk dəfə daxilə qəbul edildikdən sonra, onun təsiri, adətən, 3-5 gün sonra baş verir.
*Paylanması*
Hesablanmış paylanma həcmi təxminən 10-12 litr təşkil edir. Levotiroksin xüsusi nəqledici zülallarla təxminən 99,97% birləşir. Zülalların hormonla birləşməsi kovalent birləşmə deyildir, bu səbəbdən də, sərbəst və birləşmiş hormon arasında daimi və çox sürətli mübadilə baş verir.
*Xaric olması*
Levotiroksinin metabolik klirensi təxminən 1,2 litr plazma/gün təşkil edir. Onun parçalanması, əsasən, qaraciyərdə, böyrəklərdə, baş beyində və əzələlərdə baş verir. Metabolitlər sidik və nəcislə xaric edilir.
Levotiroksinin yarımxaricolma müddəti təxminən 7 gün təşkil edir; hipertireoz zamanı bu müddət azala (3-4 günədək), hipotireoz zamanı isə arta (təxminən 9-10 günədək) bilər.
Hamiləlik və laktasiya
Levotiroksin ciftdən çox kiçik miqdarlarda nüfuz edir. Preparatın adi dozalarda qəbulu zamanı levotiroksin ana südünə çox az miqdarlarda nüfuz edir.
Böyrəklərin funksiyasının pozulması
Zülallarla yüksək dərəcədə birləşməsinə görə, nə hemodializ, nə də hemoperfuziya levotiroksinin səviyyəsinə təsir etmir.

**İstifadəsinə göstərişlər**
L-Tiroksin 25 Berlin-Hemi preparatı aşağıdakı hallarda istifadə edilir:
- qalxanabənzər vəzinin funksiyasının azalmış olduğu bütün xəstəlik formalarında ifraz olunmayan hormonun əvəz edilməsi üçün (əvəzedici müalicə);
- qalxanabənzər vəzinin funksiyası normal olduqda, urun (qalxanabənzər vəzinin böyüməsi) çıxarılması üzrə cərrahi əməliyyatdan sonra urun residivinin profilaktikası üçün;
- qalxanabənzər vəzinin funksiyası normal olduqda, xoşxassəli urun müalicəsi üçün;
- metabolizmin normal vəziyyəti əldə edildikdən sonra, qalxanabənzər vəzinin funksiyası artmış olduqda, tireostatiklərlə (qalxanabənzər vəzinin artmış funksiyasını zəiflədən dərman vasitələri) müalicə fonunda yanaşı müalicə qismində;
- qalxanabənzər vəzinin bədxassəli şişi zamanı – əsasən, cərrahiyyə əməliyyatından sonra, şişin residivinin qarşısının alınması və qalxanabənzər vəzinin ifraz olunmayan hormonunun əvəz edilməsi üçün.

L-Tiroksin 25 Berlin-Hemi preparatı bütün yaş qruplarında istifadə üçün göstərişdir.

**Əks göstərişlər**
L-Tiroksin 25 Berlin-Hemi preparatı aşağıdakı hallarda qəbul etməyin:
- Əgər Sizdə levotiroksin natriuma və ya bu dərman preparatının tərkibindəki maddələrdən hər hansı birinə (tərkibi bölməsində sadalanmışdır) qarşı allergiya vardırsa.
- Əgər Siz aşağıdakı xəstəliklərdən birindən əziyyət çəkirsinizsə və ya Sizdə aşağıdakı vəziyyətlərdən hər hansı biri vardırsa:
  - qalxanabənzər vəzinin funksiyasının artması, bununla bağlı müalicə aparılmadıqda;
  - müalicə edilməmiş adrenokortikal çatışmazlıq;
  - hipofizin müalicə edilməmiş çatışmazlığı, əgər bu çatışmazlıq müalicəsi tələb olunan adrenokortikal çatışmazlığa gətirib çıxarmışdırsa;
  - yaxın keçmişdə keçirilmiş miokard infarktı;

- ürək əzələsinin kəskin iltihabı (miokardit);
- ürək divarının bütün təbəqələrinin kəskin iltihabı (pankardit).

L-Tiroksin 25 Berlin-Hemi preparatı hamiləlik zamanı və qalxanabənzər vəzinin funksiyasının artmasının müalicəsi üçün digər dərman preparatları ilə eyni zamanda qəbul edilməməlidir (həmçinin "Hamiləlik, laktasiya və uşaq doğma funksiyası" bölməsinə baxın).

*Pozuntular baxımından müayinə*

L-Tiroksin 25 Berlin-Hemi preparatının qəbuluna başlamazdan əvvəl aşağıdakı xəstəliklərin və ya vəziyyətlərin mövcudluğu istisna edilməli və ya müvafiq müalicə aparılmalıdır:

- Ürəyin işemik xəstəliyi.
- Ürək nahiyəsində ağrı və sinədə sıxılma hissi (stenokardiya).
- Arterial təzyiqin yüksəlməsi.
- Hipofizin və ya böyrəküstü vəzilərin qabıq maddəsinin çatışmazlığı.
- Qalxanabənzər vəzidə nəzarət edilməsi mümkün olmayan tireoid hormonu ifraz edən zonaların olması (qalxanabənzər vəzinin funksional avtonomluğu).

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**

L-Tiroksin 25 Berlin-Hemi preparatını qəbul etməzdən əvvəl həkiminizə və ya əczaçıya müraciət edin.
Aşağıdakı hallarda L-Tiroksin 25 Berlin-Hemi preparatının qəbulu zamanı xüsusilə ehtiyatlı olmaq lazımdır:

- Əgər Sizdə miokard infarktı baş vermişdirsə və ya ürəyin işemik xəstəliyi, ürək əzələsinin zəifliyi, ürək ritminin pozulmaları (taxikardiya) və ya kəskinləşmə olmadan ürək əzələsinin iltihabı və ya qalxanabənzər vəzinin funksiyasının uzun müddətli azalması vardırsa. Bu hallarda qanda hormonların səviyyəsinin həddən artıq yüksək olmasına yol verilməməlidir. Buna görə də, qalxanabənzər vəzi hormonlarının səviyyəsini daha tez-tez yoxlamaq lazımdır. L-Tiroksin 25 Berlin-Hemi preparatının qəbulu ilə əlaqədar olaraq qalxanabənzər vəzinin funksiyasının artmasının cüzi əlamətləri meydana çıxdıqda, bu barədə həkiminizə məlumat verməlisiniz ("əlavə təsirləri" bölməsinə baxın).
- Əgər Sizdə böyrəküstü vəzilərin funksiyası zəifləmişdirsə (böyrəküstü vəzi çatışmazlığı).
- Əgər qalxanabənzər vəzinin funksiyasının çatışmazlığı hipofizin xəstəliyi nəticəsində yaranmışdırsa. Ola bilsin ki, bu vəziyyət böyrəküstü vəzilərin qabıq maddəsinin çatışmazlığı ilə müşayiət olunsun, bu çatışmazlıq tireoid hormonu ilə müalicəyə başlamazdan əvvəl aradan qaldırılmalıdır (hidrokortizonla müalicə). Adekvat müalicə aparılmadıqda, böyrəküstü vəzilərin qabıq maddəsinin kəskin çatışmazlığı (Addison krizi) inkişaf edə bilər.
- Əgər qalxanabənzər vəzidə nəzarət edilməsi mümkün olmayan tireoid hormonu ifraz edən zonaların olmasına şübhə vardırsa. Müalicə başlanana qədər bu baxımdan qalxanabənzər vəzinin funksiyasının əlavə müayinələri aparılmalıdır.
- Sümük kütləsinin itirilməsi (osteoporoz) riski olan qadınlarda menopauza başladıqdan sonra. Həkiminiz qalxanabənzər vəzi hormonlarının səviyyəsinin artmasına yol verməmək və ən aşağı effektiv dozanın istifadəsi imkanını təmin etmək üçün qalxanabənzər vəzinin funksiyasına nəzarəti tez-tez həyata keçirməlidir.
- Əgər Siz şəkərli diabetdən əziyyət çəkirsinizsə. Daha ətraflı məlumata "Digər dərman vasitələri və L-Tiroksin 25 Berlin-Hemi preparatı" bölməsində baxın.
- Əgər Siz qanın laxtalanması əleyhinə müəyyən dərman vasitələri (məsələn, dikumarol) və ya qalxanabənzər vəziyə təsir edən preparatlar (məsələn, amiodaron, tirozinkinazanın inhibitorları [xərçəng xəstəliyinin müalicəsində istifadə edilən dərman preparatları], yüksək dozalarda salisilatlar və furosemid) qəbul edirsinizsə. Daha ətraflı məlumata "Digər dərman vasitələri və L-Tiroksin 25 Berlin-Hemi preparatı" bölməsində baxın.
- Əgər Siz dializ metodu ilə müalicə qəbul edirsinizsə və qanda fosfatların səviyyəsinin həddən artıq yüksək olması səbəbindən sevelamer preparatını qəbul edirsinizsə, həkiminiz, çox güman ki, levotiroksinin effektivliyinin qiymətləndirilməsi üçün qan analizinin müəyyən göstəricilərinə nəzarət məsələsini nəzərdən keçirəcəkdir (həmçinin "Digər dərman vasitələri və L-Tiroksin 25 Berlin-Hemi preparatı" bölməsinə baxın).
- Əgər Siz keçmişdə nə zamansa epilepsiya xəstəliyindən əziyyət çəkmisinizsə, Sizdə qıcolma tutmalarının baş vermə riski yüksəkdir.

• Əgər Sizdə allergik reaksiya baş vermişdirsə ("Mümkün əlavə təsirləri" bölməsinə baxın). Dərhal həkiminizlə və ya digər bir tibb işçisi ilə əlaqə saxlayın və ya dərhal ən yaxın xəstəxananın təxirəsalınmaz yardım şöbəsinə müraciət edin.
• Əgər Siz qalxanabənzər vəzi hormonlarının səviyyəsinin yoxlanılması çərçivəsində laborator müayinələrdən keçməlisinizsə, hazırda və ya yaxın keçmişdə biotin (H vitamini, $B_7$ vitamini və ya $B_8$ vitamini kimi də adlandırılır) qəbul etdiyinizi həkiminizə və/və ya laboratoriya işçilərinə bildirməlisiniz. Biotin Sizin laboratoriya analizlərinizin nəticələrinə təsir edə bilər. Müayinədən asılı olaraq, biotinin təsiri müayinə nəticələrinin yanlış artması və ya yanlış azalması ilə ifadə oluna bilər. Həkiminiz laboratoriya müayinələrinin aparılmasından əvvəl biotinin qəbulunun dayandırılmasını sizdən xahiş edə bilər. Bunu da bilməlisiniz ki, ehtimal ki, qəbul etdiyiniz digər preparatların – məsələn, saçların, dərinin və dırnaqların vəziyyətinin yaxşılaşdırılması üçün polivitaminlərin və ya qida əlavələrinin də tərkibində biotin ola bilər. Bu, laboratoriya müayinələrinin nəticələrinə təsir edə bilər. Əgər Siz bu cür preparatları qəbul edirsinizsə, bu barədə həkiminizə və/və ya laboratoriyanın işçilərinə məlumat verməyiniz xahiş olunur ("Digər dərman vasitələri ilə qarşılıqlı təsiri" bölməsindəki məlumatlara baxın).

*Səhv istifadə*

L-Tiroksin 25 Berlin-Hemi preparatı bədən çəkisinin azaldılması məqsədi ilə qəbul edilməməlidir. Əgər Sizin qanınızda tireoid hormonunun səviyyəsi normaldırsa, qalxanabənzər vəzi hormonlarının əlavə qəbulu bədən çəkisinin azalmasına gətirib çıxarmayacaqdır. Qalxanabənzər vəzi hormonlarının əlavə qəbulu və ya həkiminizin xüsusi göstərişi olmadan dozanın artırılması ciddi və ya hətta həyat üçün təhlükəli olan əlavə təsirlərin yaranmasına gətirib çıxara bilər (xüsusilə də, bədən çəkisinin azaldılması üçün bəzi preparatlarla yanaşı qəbul edildikdə).

*Müalicənin dəyişdirilməsi*

Dərman vasitəsinin levotiroksinin digər preparatına dəyişdirilməsi zərurəti yarandıqda, qalxanabənzər vəzinin işində tarazlığın pozulması baş verə bilər. Əgər preparatın dəyişdirilməsi ilə bağlı hər hansı suallarınız varsa, onları həkiminizlə müzakirə edin. Keçid dövrü ərzində hərtərəfli (klinik və biokimyəvi) nəzarətin aparılması tələb olunur. Hər hansı əlavə təsirlər meydana çıxdıqda, Siz bu barədə həkiminizə məlumat verməlisiniz, belə ki, bu zaman qəbul etdiyiniz preparatın dozasının artırılması və ya azaldılması zərurəti yarana bilər.

*Yaşlılar*

Yaşlı pasiyentlər üçün preparatın dozalanması ehtiyatla aparılmalı (xüsusilə də, ürək xəstəlikləri olduqda), eləcə də həkim nəzarəti daha tez-tez həyata keçirilməlidir.

*Uşaqlar və yeniyetmələr*

Doğularkən bədən çəkisi çox aşağı olan yarımçıq doğulmuş uşaqlarda levotiroksin ilə müalicənin əvvəlində mütəmadi olaraq arterial təzyiqə nəzarət etmək lazımdır, belə ki, kəskin damar çatışmazlığı kimi tanınan vəziyyət – arterial təzyiqin qəfil aşağı düşməsi baş verə bilər ("əlavə təsirləri" bölməsinə baxın).

L-Tiroksin 25 Berlin-Hemi preparatının tərkibində natrium vardır.

Bu dərman preparatının tərkibində bir tabletdə 1 mmol-dan az (23 mq) miqdarda natrium vardır, yəni hesab etmək olar ki, preparatın tərkibində demək olar ki, "natrium yoxdur".

**Digər dərman vasitələri ilə qarşılıqlı təsirləri**

Əgər Siz hazırda hər hansı digər dərman vasitələrini qəbul edirsinizsə, yaxın keçmişdə qəbul etmisinizsə və ya qəbul etməyə hazırlaşırsınızsa, bu barədə həkiminizə və ya əczaçıya məlumat verin.

L-Tiroksin 25 Berlin-Hemi preparatı aşağıdakı dərman vasitələrinin və ya aşağıdakı qruplardan olan preparatların təsirini dəyişir:

• Diabet əleyhinə preparatlar (qanda şəkərin səviyyəsini azaldan dərman preparatları) – məsələn, metformin, qlimepirid, qlibenklamid və insulin):

Əgər Siz şəkərli diabetdən əziyyət çəkirsinizsə, qanda şəkərin səviyyəsini mütəmadi olaraq – əsasən, qalxanabənzər vəzinin hormonları ilə müalicənin əvvəlində və sonunda yoxlamalısınız. Levotiroksin bu preparatların təsirini zəiflədə bildiyindən, həkiminiz tərəfindən qanda şəkərin səviyyəsini aşağı salan dərman preparatlarının dozasının tənzimlənməsinə ehtiyac ola bilər.

• Kumarin törəmələri (qanın laxtalanmasına qarşı dərman vasitələri):

L-Tiroksin 25 Berlin-Hemi preparatının kumarin törəmələri (məsələn, dikumarol) ilə eyni zamanda istifadəsi zamanı qanın laxtalanma göstəricilərinə mütəmadi nəzarət tələb olunur. Levotiroksin bu qrup preparatların təsirini gücləndirə bildiyindən, həkiminiz tərəfindən qanın laxtalanmasına qarşı istifadə edilən preparatların dozasının azaldılmasına ehtiyac ola bilər.

Aşağıdakı dərman vasitələri L-Tiroksin 25 Berlin-Hemi preparatının təsirini dəyişir:

- İon mübadilə qatranları:

Qanda lipidlərin səviyyəsinin azaldılması üçün preparatlar (məsələn, xolestiramin, kolestipol) və ya qanda kaliumun konsentrasiyasının azaldılması üçün preparatlar (polistiren sulfon turşusunun kalsium və natrium duzları) L-Tiroksin 25 Berlin-Hemi preparatının qəbulundan 4-5 saat sonra qəbul edilməlidir. Bu dərman preparatları levotiroksinin bağırsaqdan qana daxil olmasına mane olur və beləliklə də, onun effektivliyini azaldırlar.

- Proton nasosunun inhibitorları:

Mədə turşusunun ifrazının azaldılması üçün istifadə edilən proton nasosu inhibitorları (məsələn, omeprazol, ezomeprazol, pantoprazol, rabeprazol və lansoprazol) mədə tərəfindən ifraz olunan turşunun miqdarını azaltmaq üçün istifadə olunur ki, bu da bağırsaqlardan levotiroksinin sorulmasını və bununla da onun təsirini azalda bilər. Əgər Siz levotiroksini proton nasosunun inhibitorları ilə eyni zamanda qəbul edirsinizsə, həkiminiz qalxanabənzər vəzinin funksiyasına nəzarət etməlidir və çox güman ki, o, L-Tiroksin 25 Berlin Hemi preparatının dozasını tənzimləməli olacaqdır.

- Sevelamer və lantan karbonat:

Sevelamer və lantan karbonat (dializ metodu ilə müalicə qəbul edən pasiyentlərdə qanda fosfatların səviyyəsinin azaldılması üçün istifadə edilən preparatlar) levotiroksinin sorulmasını və effektivliyini azalda bilərlər. Həkiminiz qalxanabənzər vəzinizin funksiyasına nəzarəti daha tez-tez həyata keçirəcəkdir (həmçinin "Xəbərdarlıqlar və ehtiyat tədbirləri" bölməsinə baxın).

- Öd turşularını birləşdirən vasitələr:

Kolesevelam (qanda xolesterinin konsentrasiyasının azaldılması üçün dərman preparatı) levotiroksini birləşdirir və beləliklə də, levotiroksinin bağırsaqda sorulmasını azaldır. Buna görə də L-Tiroksin 25 Berlin-Hemi preparatı kolesevelamın qəbulundan 4 saat əvvəl qəbul edilməlidir.

- Mədə şirəsinin turşusunu birləşdirən, tərkibində alüminium olan dərman preparatları, tərkibində dəmir və kalsium olan dərman preparatları:

L-Tiroksin 25 Berlin-Hemi preparatı mədə şirəsinin turşusunu birləşdirən, tərkibində alüminium olan dərman preparatlarının (antasidlər, sukralfat), habelə tərkibində dəmir və kalsium olan dərman preparatlarının qəbulundan ən azı 2 saat əvvəl qəbul edilməlidir. Bu dərman preparatları levotiroksinin bağırsaqdan qana daxil olmasına mane olur və beləliklə də, onun effektivliyini azaldırlar.

- Propiltiourasil, qlükokortikoidlər, beta-blokatorlar (xüsusilə də, propranolol):

Propiltiourasil (qalxanabənzər vəzinin funksiyasının artmasının müalicəsi üçün preparat), qlükokortikoidlər (böyrəküstü vəzinin qabıq maddəsinin hormonları, "kortizon") və β-blokatorlar (ürək yığılmalarının tezliyini azaldan və arterial təzyiqi aşağı salan preparatlar) levotiroksinin onun daha aktiv formasına – liotironinə – çevrilməsinə mane olurlar və beləliklə də, L-Tiroksin 25 Berlin-Hemi preparatının effektivliyini azalda bilərlər.

- Amiodaron, tərkibində yod olan kontrast maddələr:

Amiodaron (ürək ritminin pozulmalarının müalicəsi üçün preparat) və tərkibində yod olan kontrast maddələr (rentgenoloji diaqnostika üçün müəyyən preparatlar) tərkibində yodun miqdarı yüksək olduğundan qalxanabənzər vəzinin aktivliyinin həm artmasına, həm də azalmasına səbəb ola bilərlər. Qalxanabənzər vəzidə aşkarlanmamış, nəzarət edilməsi mümkün olmayan tireoid hormonu ifraz edən mümkün zonalarla (muxtariyyət) müşayiət olunan düyünlü ur zamanı xüsusilə ehtiyatlı olmaq lazımdır. Amiodaron levotiroksinin onun daha aktiv formasına – liotironinə – çevrilməsinə mane olur və beləliklə də, L-Tiroksin 25 Berlin-Hemi preparatının təsirini dəyişə bilər. Lazım gələrsə, həkiminiz L-Tiroksin 25 Berlin-Hemi preparatının dozasını müvafiq olaraq tənzimləməlidir.

- Aşağıdakı dərman preparatları L-Tiroksin 25 Berlin-Hemi preparatının təsirini dəyişə bilərlər:
    - Salisilatlar, xüsusilə də, gündə 2 qramdan artıq dozalarda (hərarətsalıcı və ağrıkəsici dərman preparatları);
    - Dikumarol (qanda trombların yaranmasının qarşısını alan preparat);
    - Furosemid (sidikqovucu vasitə) yüksək dozalarda (250 mq);
    - Klofibrat (qanda lipidlərin yüksək səviyyəsini azaltmaq üçün dərman preparatı).
- Kontraseptivlər və ya hormon əvəzedici müalicə üçün preparatlar:

Tərkibində estrogen olan kontraseptiv hormonal preparatların ("həblərin") qəbulu və ya menopauza başladıqdan sonra hormon əvəzedici müalicə zamanı levotiroksinə tələbat arta bilər.

- Sertralin, xloroxin/proquanil:

Sertralin (depressiyanın müalicəsi üçün preparat) və xloroxin/proquanil (malyariyanın və revmatik mənşəli xəstəliklərin müalicəsi üçün preparatlar) levotiroksinin effektivliyini azaldırlar.

- Rifampisin, karbamazepin, fenitoin, barbituratlar, tərkibində dazıotu olan preparatlar:

Rifampisin (antibiotik), karbamazepin (qıcolma tutmalarının müalicəsi üçün istifadə edilir), fenitoin (qıcolma tutmalarının və ürək ritminin pozulmalarının müalicəsi üçün istifadə edilir), barbituratlar (qıcolma tutmaları zamanı, anesteziya üçün istifadə edilirlər, müəyyən növ yuxugətiricilərdir) və tərkibində dazıotu olan preparatlar (bitki mənşəli dərman vasitəsi) levotiroksinin təsirini zəiflədə bilərlər.

- Proteazaların inhibitorları (İİÇV infeksiyasının və/və ya hepatit C-nin xroniki formasının müalicəsi üçün dərman preparatları):

Levotiroksin ilə proteazanın inhibitorlarının (lopinavir, ritonavir) birlikdə istifadəsi zamanı həkiminiz xəstəliyin simptomlarını diqqətlə müşahidə etməli və qalxanabənzər vəzinin funksiyasına nəzarət etməlidir. Preparatın lopinavir/ritonavir ilə birlikdə istifadəsi zamanı levotiroksinin təsirinin azalması mümkündür.

- Tirozinkinazanın inhibitorları (xərçəng xəstəliyinin müalicəsi üçün dərman preparatları):

Levotiroksin ilə tirozinkinazanın inhibitorlarının (məsələn, imatinib, sunitinib, sorafenib, motesanib) birlikdə istifadəsi zamanı həkiminiz xəstəliyin əlamətlərini diqqətlə müşahidə etməli və qalxanabənzər vəzinin funksiyasına nəzarət etməlidir. Levotiroksinin effektivliyi azala bilər; lazım gələrsə, həkiminiz levotiroksinin dozasını tənzimləməlidir.

- Semaqlutid:

Əgər Siz levotiroksini semaqlutidlə (diabet əleyhinə dərman vasitəsi) eyni zamanda qəbul edirsinizsə, bu, levotiroksinin səviyyəsinə təsir edə bilər və müalicə həkimi, ola bilsin ki, qalxanabənzər vəzi hormonlarının səviyyəsinə nəzarət etməli, eləcə də, L-Tiroksin 25 Berlin Hemi preparatının dozasını tənzimləməli olacaqdır.

- Orlistat:

Orlistat (piylənmənin müalicəsi üçün istifadə olunur) levotiroksinin sorulmasını azalda bilər.

- Biotin (H vitamini, $B_7$ vitamini və ya $B_8$ vitamini kimi də adlandırılır):

Əgər Siz qalxanabənzər vəzi hormonlarının səviyyəsinin yoxlanılması çərçivəsində laborator müayinələrdən keçməlisinizsə, hazırda və ya yaxın keçmişdə biotin qəbul etdiyinizi həkiminizə və/və ya laboratoriya işçilərinə bildirməlisiniz. Biotin sizin laboratoriya analizlərinizin nəticələrinə təsir edə bilər ("Xəbərdarlıqlar və ehtiyat tədbirləri" bölməsinə baxın).

**Hamiləlik dövründə və laktasiya dövründə istifadəsi**

Əgər Siz hamiləsinizsə və ya körpənizi ana südü ilə qidalandırırsınızsa, hamilə olduğunuzu ehtimal edirsinizsə və ya hamiləliyi planlaşdırırsınızsa, bu dərman vasitəsini qəbul etməzdən əvvəl məsləhət almaq üçün həkiminizə və ya əczaçıya müraciət edin.

Qalxanabənzər vəzinin hormonları ilə müalicə daimi əsasda – o cümlədən, hamiləlik zamanı, eləcə də laktasiya dövründə aparılmalıdır.

Hamiləlik və laktasiya dövrlərində qalxanabənzər vəzinin supressiya testi aparılmamalıdır.

*Hamiləlik dövrü*

Ananın və dölün sağlamlıq vəziyyətinin optimal vəziyyətdə olması üçün hamilə qadınlarda qalxanabənzər vəzi hormonlarının səviyyəsinin norma daxilində saxlanılması həyati vacib məsələdir. Hazırda, levotiroksinin hamiləlik dövründə geniş istifadə olunmasına baxmayaraq, onun hamiləliyin gedişinə və ya dölün/yenidoğulmuşun sağlamlığına mənfi təsiri aşkar edilməmişdir.

Hamiləlik zamanı levotiroksinə olan tələbat arta bilər ki, bu da estrogenlərlə əlaqəlidir. Bu səbəbdən də, həm hamiləlik dövründə, həm də hamiləlik dövründən sonra qalxanabənzər vəzinin funksiyasına nəzarət etmək, lazım gəldikdə isə qalxanabənzər vəzi hormonunun dozasını tənzimləmək lazımdır.

Qan zərdabında TTH-nin səviyyəsi artıq hamiləliyin 4-cü həftəsində arta bildiyindən, levotiroksin qəbul edən hamilə qadınlarda hamiləliyin hər bir konkret trimestrində ananın qan zərdabında TTH göstəricilərinin müvafiq etalon diapazonu daxilində olduğuna əmin olmaq üçün, levotiroksin qəbul edən hamilə qadınlarda hər bir trimestrdə TTH-nin səviyyəsi ölçülməlidir. Qan zərdabında TTH-nin səviyyəsi yüksəldikdə levotiroksinin dozasını artırmaq yolu ilə onu tənzimləmək lazımdır. Doğuşdan sonra TTH-nin səviyyəsi onun hamiləlikdən əvvəlki səviyyəsi ilə oxşar olduğundan, doğuşdan dərhal sonra levotiroksinin hamiləlikdən əvvəlki dozasına qayıtmaq lazımdır. Qan zərdabında TTH-nin səviyyəsi doğuşdan 6-8 həftə sonra təyin edilməlidir.

Hamiləlik dövründə hipertireozun müalicəsi üçün tireostatik preparatlarla müalicəyə əlavə qismində levotiroksin natriumun istifadəsi əks-göstərişdir. Levotiroksinin əlavə qəbulu zamanı tireostatiklərin dozasının artırılması tələb oluna bilər. Levotiroksindən fərqli olaraq, tireostatiklər təsirə malik olan

dozalarda cift baryerini keçirlər ki, bu da döldə hipotireoza gətirib çıxara bilər. Bu səbəbdən də hamiləlik dövründə hipertireozun müalicəsi aşağı dozalarda tireostatiklərlə birkomponentli müalicə kimi aparılmalıdır.

*Laktasiya dövrü*

Laktasiya dövründə levotiroksin ana südünə keçir, lakin onun tövsiyə olunan terapevtik səviyyəyə uyğun olan dozada istifadəsi zamanı əldə edilən konsentrasiya körpədə hipertireozun inkişafı və ya TTH-nin sekresiyasının zəifləməsi üçün kifayət deyildir.

*Fertillik qabiliyyəti*

Hipotireoz və ya hipertireoz fertillik qabiliyyətinə təsir edə bilər. Hipotireoz zamanı L-Tiroksin 25 Berlin Hemi preparatı ilə müalicə müddətində doza laboratoriya göstəricilərinin müşahidə edilməsinə əsasən seçilməlidir, belə ki, preparat qeyri-kafi dozada hipotireozun müsbət dinamikasını çox güman ki, təmin etməyəcəkdir, doza həddinin aşılması isə hipertireoza gətirib çıxara bilər.

**Nəqliyyat vasitələrini idarə etmək və mexanizmlərə xidmət etmək qabiliyyətinə təsiri**

L-Tiroksin 25 Berlin-Hemi preparatının nəqliyyat vasitələrini idarə etmək və mexanizmlərə xidmət etmək qabiliyyətinə təsirinə dair tədqiqatlar aparılmamışdır.

**İstifadə qaydası və dozası**

Bu dərman preparatını hər zaman həkiminizin Sizə izah etdiyi qaydada dəqiqliklə qəbul edin. Əgər Sizdə şübhələr vardırsa, həkiminiz və ya əczaçı ilə məsləhətləşin.

Fərdi gündəlik doza müayinələrin nəticələrinə əsasən, həkiminiz tərəfindən müəyyənləşdirilməlidir.

*Dozaları*

Fərdi müalicə üçün preparatın təsiredici maddəsinin müxtəlif miqdarlarına malik olan tabletlər (25-150 mkq levotiroksin natrium) mövcuddur və bu o deməkdir ki, Siz gündə bir tablet qəbul etməlisiniz.

Mövcud simptomlardan asılı olaraq, həkiminiz aşağıdakı tövsiyələri rəhbər tutmalıdır:

- Qalxanabənzər vəzinin funksiyasının azalması zamanı böyüklər əvvəlcə gündə 25-50 mkq levotiroksin natrium qəbul etməlidirlər. Həkimin göstərişi ilə bu doza 2-4 həftəlik aralıqlarla 100-200 mkq levotiroksin natriuma bərabər olan gündəlik doza əldə edilənədək 25-50 mkq levotiroksin natrium qədər artırıla bilər.
- Urun cərrahi yolla çıxarılmasından sonra urun residivinin profilaktikası və xoşxassəli urun müalicəsi üçün gündə 75-200 mkq levotiroksin natrium qəbul edilməlidir.
- Qalxanabənzər vəzinin funksiyasının artması zamanı tireostatiklərlə müalicə fonunda gündə 50-100 mkq levotiroksin natrium qəbul edilir.
- Qalxanabənzər vəzinin bədxassəli şişi ilə bağlı qalxanabənzər vəzidə aparılmış cərrahi əməliyyatdan sonra gündə 150-300 mkq levotiroksin natrium qəbul edilməlidir.

Qalxanabənzər vəzi hormonunun daha aşağı dozalarda qəbulu da kifayət edə bilər.

*Uşaqlarda istifadəsi*

Qalxanabənzər vəzinin funksiyasının azalması (anadangəlmə və qazanılma hipotireoz) zamanı uzun müddətli müalicə üçün dəstəkləyici doza, adətən, bədən səthinin sahəsinin hər $m^2$ üçün gündə 100-150 mkq levotiroksin natrium təşkil edir.

Qalxanabənzər vəzinin funksiyasının anadangəlmə azalması olan yenidoğulmuşlar və körpələr üçün hormonların tez bir zamanda əvəz edilməsi onların normal psixi və fiziki inkişafı üçün xüsusilə vacib əhəmiyyət kəsb edir. İlk 3 ay ərzində istifadə üçün levotiroksinin tövsiyə edilən başlanğıc dozası bədən çəkisinin hər kiloqramına gündə 10-15 mkq təşkil edir. Bundan sonra həkim klinik müayinələrin nəticələrinə uyğun olaraq (xüsusilə də, qanda qalxanabənzər vəzi hormonlarının səviyyəsinin ölçülməsinə əsasən) gündəlik dozanı fərdi qaydada seçməlidir.

Qalxanabənzər vəzinin funksiyasının qazanılma azalması olan uşaqlar üçün levotiroksinin tövsiyə olunan başlanğıc dozası gündə 12,5-50 mkq təşkil edir. Həkim gündəlik dozanın artırılmasını tədricən – tam həcmdə əvəzedici müalicə üçün zəruri olan doza əldə edilənədək hər 2-4 həftədən bir həyata keçirməlidir. Eyni zamanda, həkim, xüsusilə, qanda qalxanabənzər vəzi hormonlarının səviyyəsini nəzərə almalıdır.

*Yaşlı pasiyentlər, ürəyin işemik xəstəliyindən əziyyət çəkən pasiyentlər və qalxanabənzər vəzinin funksiyası azalmış pasiyentlər*

Yaşlı pasiyentlərdə, ürəyin işemik xəstəliyindən əziyyət çəkən pasiyentlərdə və qalxanabənzər vəzinin funksiyası ağır dərəcədə və uzun müddət azalmış pasiyentlərdə qalxanabənzər vəzinin hormonları ilə müalicə xüsusi ehtiyatla başlanmalıdır (başlanğıc doza aşağı olmalı, böyük zaman intervalları ilə

tədricən artırılmalıdır; eyni zamanda qalxanabənzər vəzi hormonlarının səviyyəsinə tez-tez nəzarət edilməlidir).

*Bədən çəkisi aşağı olan pasiyentlər və böyük ölçülü düyünlü uru olan pasiyentlər*

Klinik təcrübə bədən çəkisi aşağı olan pasiyentlərin və böyük ölçülü düyünlü uru olan pasiyentlərin müalicəsi üçün aşağı dozanın da optimal olduğunu göstərmişdir.

*İstifadə qaydası*

Preparat səhər vaxtı tam gündəlik dozada, böyük miqdarda maye (yaxşı olar ki, bir stəkan su) ilə birlikdə içilərək qəbul edilməlidir; preparat acqarına – səhər yeməyindən ən azı yarım saat əvvəl qəbul edilməlidir. Təsiredici maddəni yeməkdən əvvəl və ya sonra ilə müqayisədə acqarına vəziyyətdə qəbul etmək daha yaxşıdır.

Uşaqlara preparatın tam gündəlik dozasını birinci qida qəbulundan ən azı yarım saat əvvəl vermək lazımdır. Tableti həmçinin az miqdarda suda (10-15 ml) xırdalamaq və alınmış suspenziyanı (suspenziya hər dəfə təzə hazırlanmış olmalıdır!) bir qədər əlavə maye (5-10 ml) ilə birlikdə uşağa vermək olar.

*İstifadənin müddəti*

Qalxanabənzər vəzinin funksiyasının azalması zamanı və qalxanabənzər vəzinin bədxassəli şişi ilə bağlı qalxanabənzər vəzidə aparılmış cərrahi əməliyyatdan sonra, pasiyentlər L-Tiroksin 25 Berlin-Hemi preparatını adətən, bütün ömür boyu qəbul edirlər. Xoşxassəli urun müalicəsi və urun təkrar əmələ gəlməsinin qarşısının alınması üçün: bir neçə ay və ya il ərzində qəbuldan bütün ömrü boyu qəbuladək. Qalxanabənzər vəzinin funksiyasının artması zamanı müalicə fonunda əlavə müalicə qismində L-Tiroksin 25 Berlin-Hemi preparatı tireostatiklər (qalxanabənzər vəzinin artmış funksiyasını azaldan dərman preparatları) qəbul edildiyi müddətdə qəbul edilir. Qalxanabənzər vəzinin funksiyasının normal olduğu xoşxassəli ur zamanı 6 aydan 2 ilədək müddətdə müalicə tələb olunur. Bu müddət ərzində L-Tiroksin 25 Berlin-Hemi preparatı ilə müalicə arzu edilən nəticəni vermədikdə, həkiminiz digər müalicə variantının istifadəsi imkanını nəzərdən keçirməlidir.

*L-Tiroksin 25 Berlin-Hemi preparatının qida və içkilərlə birlikdə qəbulu*

L-Tiroksin 25 Berlin-Hemi preparatını qida və içkilərlə – xüsusilə də, kalsium ilə zəngin olan qida (məsələn, süd və süd məhsulları) ilə birlikdə qəbul etmək tövsiyə olunmur, belə ki, bu zaman levotiroksinin sorulması əhəmiyyətli dərəcədə azala bilər.

Əgər Siz tərkibində soya olan ərzaq məhsullarından istifadə edirsinizsə, həkiminiz qanda qalxanabənzər vəzi hormonlarının səviyyəsinə daha tez-tez nəzarət etməlidir. Əgər Siz bu cür pəhrizə əməl edirsinizsə, həkiminiz pəhriz saxladığınız müddətdə, habelə Siz pəhrizi dayandırdıqdan sonra (preparat qeyri-adi dərəcədə yüksək dozalarda tələb oluna bilər) L-Tiroksin 25 Berlin-Hemi preparatının dozasının korreksiyasını həyata keçirməli olacaqdır, belə ki, tərkibində soya olan ərzaq məhsulları bağırsaqda levotiroksinin sorulmasının pozulmasına və beləliklə də, onun effektivliyinin azalmasına səbəb ola bilərlər.

L-Tiroksin 25 Berlin Hemi preparatını qəhvə ilə birlikdə qəbul etməyin, çünki bu zaman bağırsaqda levotiroksinin sorulması azala və bununla da, onun təsiri zəifləyə bilər. L-Tiroksin 25 Berlin Hemi preparatının qəbulundan sonra qəhvə içənə qədər ən azı yarım saat – bir saat gözləməlisiniz. Levotiroksinlə artıq müalicə qəbul edən pasiyentlərə müalicə həkimi tərəfindən levotiroksinin səviyyəsinin yoxlanılması və ona nəzarət olmadan qəhvə qəbulu ilə bağlı vərdişlərini dəyişdirməmələri tövsiyə olunur.

*Əgər L-Tiroksin 25 Berlin-Hemi preparatını qəbul etməyi unutmusunuzsa*

Əgər Siz preparatı çox aşağı dozada qəbul etmisinizsə və ya onun qəbulunu buraxmısınızsa, buraxılmış qəbulu kompensasiya etmək üçün ikiqat dozanı qəbul etməyin, preparatın təyin edilmiş qəbul ardıcıllığına riayət edin.

*Əgər L-Tiroksin 25 Berlin-Hemi preparatının qəbulunu dayandırmısınızsa*

Müalicənin uğurlu olması üçün L-Tiroksin 25 Berlin-Hemi preparatı mütəmadi olaraq, həkim tərəfindən təyin edilmiş dozada qəbul edilməlidir. L-Tiroksin 25 Berlin-Hemi preparatı ilə müalicəni heç bir halda öz mülahizənizə əsasən dəyişdirə, dayandıra və ya vaxtından əvvəl başa çatdıra bilməzsiniz, belə ki, Sizdə mövcud olmuş pozuntular yenidən meydana çıxa bilər.

Əgər Sizdə bu preparatın istifadəsi ilə əlaqədar əlavə suallar vardırsa, həkiminizə və ya əczaçıya müraciət edin.

**Əlavə təsirləri**

Bütün dərman vasitələrində olduğu kimi, bu preparat da bəzi insanlarda əlavə təsirlərə səbəb ola bilər.

Təsiredici maddəyə və ya L-Tiroksin 25 Berlin-Hemi preparatının digər komponentlərinə qarşı yüksək həssaslıq
Levotiroksinə və ya L-Tiroksin 25 Berlin-Hemi preparatının komponentlərindən hər hansı birinə qarşı yüksək həssaslıq zamanı dəri və tənəffüs yolları tərəfindən həyat üçün təhlükəli ola bilən allergik reaksiyalar (preparatın qəbulundan sonra dərhal və ya bir neçə gün ərzində) meydana çıxa bilər. Simptomlara səpkilər, qaşınma, tənəffüsün çətinləşməsi, təngnəfəslik, üzün, dodaqların, boğazın və ya dilin şişməsi aid ola bilər. Dərhal həkiminizlə və ya digər bir tibb işçisi ilə əlaqə saxlayın və ya dərhal ən yaxın xəstəxananın təxirəsalınmaz yardım şöbəsinə müraciət edin.
Verilmiş dozada preparata qarşı dözümsüzlük, doza həddinin aşılması
Əgər ayrı-ayrı hallarda preparat müəyyən dozada pasiyent tərəfindən yaxşı qəbul edilmirsə və ya doza həddinin aşılması baş veribsə – xüsusilə də müalicənin başlanğıcında dozanın çox sürətlə artması zamanı – qalxanabənzər vəzinin funksiyasının artması (hipertireoz) üçün səciyyəvi olan əlamətlər meydana çıxa bilər.
Çox tez-tez rast gələn əlavə təsirlər: 10 nəfərdən 1-dən çoxunda müşahidə oluna bilər
- Ürəkdöyünmənin tezləşməsi
- Yuxusuzluq
- Baş ağrısı

Tez-tez rast gələn əlavə təsirlər: 10 nəfərdən 1-də müşahidə oluna bilər
- Ürəkdöyünmənin tezləşməsi (taxikardiya)
- Əsəbilik

Nadir hallarda rast gələn əlavə təsirlər: 1000 nəfərdən 1-də müşahidə oluna bilər
- Kəllədaxili təzyiqin yüksəlməsi (xüsusilə də uşaqlarda)

Naməlum tezlikdə rast gələn əlavə təsirlər: mövcud məlumatlar əsasında tezliyi müəyyənləşdirmək mümkün deyil
- Yüksək həssaslıq
- Ürək ritminin pozulması
- Döş qəfəsində sıxılma hissi ilə müşayiət olunan ağrı (stenokardiya)
- Allergik dəri reaksiyaları (məsələn, angionevrotik ödem [tənəffüsün çətinləşməsi və ya üzün, dodaqların, boğazın və ya dilin şişməsi], səpgilər, övrə)
- Narahatlıq
- Əzələ zəifliyi, əzələ qıcolmaları
- Levotiroksinin yüksək dozalarda qəbulu fonunda osteoporoz – xüsusilə də, qadınlarda postmenopauza dövründə və əsasən, uzunmüddətli müalicə zamanı
- İstilik hissi, istiyə qarşı dözümsüzlük, bədən çəkisi az olan yarımçıq doğulmuş yenidoğulmuşlarda kəskin damar çatışmazlığı (2. "Xəbərdarlıqlar və ehtiyat tədbirləri" bölməsinə baxın).
- Aybaşı siklinin pozulması
- İshal
- Qusma
- Ürəkbulanma
- Bədən çəkisinin itirilməsi
- Titrəmə (tremor)
- Həddən artıq tərləmə
- Bədən temperaturunun yüksəlməsi

Əlavə təsirlər meydana çıxdıqda, həkiminizə müraciət edin. Həkim gündəlik dozanın azaldılmalı və ya tabletlərin qəbulunun bir neçə günlük dayandırılmalı olub-olmadığını müəyyən etməlidir. Əlavə təsir aradan qalxdıqdan sonra doza ehtiyatla seçilməklə müalicə bərpa oluna bilər.
*Əlavə təsirlər barədə məlumat verilməsi*
Sizdə hər hansı əlavə təsirlər yaranarsa, həkiminizə və ya əczaçıya müraciət edin. Bunlara bu içlik vərəqəsində göstərilməyən hər hansı mümkün əlavə təsirlər də aiddir. Siz, həmçinin əlavə təsir barədə Analitik Ekspertiza Mərkəzinin saytından (www.pharma.az) və ya elektron poçta ünvanı (adr@pharma.az) vasitəsi ilə və ya 596-07-12 telefon nömrəsinə zəng vurmaqla məlumat verə bilərsiniz. Əlavə təsirlər barədə məlumat verməklə Siz, bu dərman preparatının təhlükəsizliyi barədə daha çox məlumat toplamağa kömək edə bilərsiniz.

**Doza həddinin aşılması**

Doza həddinin aşılmasının əlamətləri "əlavə təsirləri" bölməsində təsvir edilmişdir. Bu cür pozuntular meydana çıxdıqda, həkiminizə müraciət edin.
Doza həddinin aşılmasının göstəricisi qismində T3-ün səviyyəsinin yüksəlməsi T4-ün və ya fT4-ün səviyyəsinin yüksəlməsinə nisbətən daha etibarlı hesab edilir.
Doza həddinin aşılması və intoksikasiya zamanı metabolizmin orta və ya əhəmiyyətli dərəcədə sürətlənməsi üçün səciyyəvi olan simptomlar meydana çıxır. Doza həddinin aşılma dərəcəsindən asılı olaraq, preparatın qəbulunu dayandırmaq və kontrol müayinədən keçmək tövsiyə olunur.
İnsanda intoksikasiya hallarında (intihar cəhdləri) levotiroksin 10 mq-dək dozalarda ağırlaşmalar olmadan keçirilir. Həyati vacib funksiyaların (tənəffüsün və qan dövranının) pozulması kimi ciddi ağırlaşmaların inkişaf etmə ehtimalı azdır, bu şərtlə ki, anamnezdə ürəyin işemik xəstəliyi olmasın. Buna baxmayaraq, tireotoksik krizin, qıcolmaların, ürək çatışmazlığının və komanın inkişaf etməsi barədə məlumatlar mövcuddur. Anamnezində uzun illər ərzində levotiroksindən sui-istifadə edən pasiyentlərdə qəfil ürək ölümü barədə ayrı-ayrı məlumatlar mövcuddur.
Doza həddinin kəskin aşılması hallarında dərman vasitəsinin mədə-bağırsaq traktında sorulmasını aktivləşdirilmiş kömürün qəbulu ilə azaltmaq mümkündür. Müalicə, adətən, simptomatik və dəstəkləyici xarakter daşıyır. Özünü ağır dərəcədə büruzə verən beta-simpatomimetik xarakterli simptomları – məsələn, taxikardiyanı, təşvişi, həyəcanı və ya hiperkinezləri – beta adrenoblokatorların qəbulu ilə zəiflətmək mümkündür. Tireostatiklərin istifadəsi göstəriş deyildir, belə ki, qalxanabənzər vəzinin funksiyası artıq tamamilə zəifləmişdir.
Preparatın çox yüksək dozada qəbulu (intihar cəhdi) zamanı plazmafarezin aparılması məqsədəuyğundur.
Levotiroksinin doza həddinin aşılması zamanı uzun müddətli müşahidə tələb olunur. Levotiroksinin liotroninə çevrilməsi tədricən baş verən proses olduğundan, simptomların inkişafı 6 günədək ləngimə ilə meydana çıxa bilər.

**Buraxılış forması**
28 tablet blisterdə. 1 blister içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.
25 tablet blisterdə. 2 və ya 4 blister içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.
Satışda heç də bütün ölçülü qablaşmalar olmaya bilər.

**Saxlanma şəraiti**
Bu dərman preparatını uşaqların əllərinin çatmadığı yerdə saxlamaq lazımdır.
30°C-dən yüksək olmayan temperaturda saxlayın.
İşıqdan qorumaq üçün orijinal blisterində saxlamaq lazımdır.
Heç bir dərman preparatını kanalizasiya sisteminə və ya məişət tullantıları ilə birlikdə atmayın. Lazım olmayan dərman preparatının utilizasiyası ilə bağlı əczaçı ilə məsləhətləşin. Bu tədbirlər ətraf mühiti qorumağa kömək edir.

**Yararlılıq müddəti**
3 il.
Bu preparatı blisterin və qatlanan qutunun üzərində "Son istifadə tarixi" sözlərindən sonra qeyd edilmiş yararlılıq müddəti bitdikdən sonra istifadə etməyin.
Yararlılıq müddətinin bitmə tarixi göstərilən ayın son günüdür.

**Aptekdən buraxılma şərti**
Resept əsasında buraxılır.

**İstehsalçı**
Berlin-Chemie AG, Germany.
Berlin-Chemie AG - Glienicker Weg 125,12489 Berlin, Germany.
Berlin-Chemie AG - Tempelhofer Weg 83,12347 Berlin, Germany.

**Qeydiyyat vəsiqəsinin sahibi**
Berlin-Chemie AG, Germany.
Glienicker Weg 125, 12489 Berlin, Germany.